**Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası gəlirlər 37 161 838,6 min manat, xərclər 37 713 661,1 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **2.1.** | **Gəlirlərin mənbələri** | **37 161 838 561** |
| 2.1.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 839 247 387 |
| 2.1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 786 901 799 |
| 2.1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 54 291 859 |
| 2.1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 338 479 371 |
| 2.1.5. | Əlavə dəyər vergisi | 8 894 256 813 |
| 2.1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 609 130 553 |
| 2.1.6. | Sadələşdirilmiş vergi | 382 868 549 |
| 2.1.7. | Aksizlər | 1 555 693 063 |
| 2.1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 204 373 365 |
| 2.1.8. | Yol vergisi | 135 905 437 |
| 2.1.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 44 449 323 |
| 2.1.9. | Mədən vergisi | 173 341 557 |
| 2.1.10. | Gömrük rüsumları | 1 790 749 760 |
| 2.1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 112 119 898 |
| 2.1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 933 837 |

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 577 763 183 |
| 2.1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 781 000 000 |
| 2.1.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 37 573 784 |
| 2.1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 15 053 109 |
| 2.1.17. | Dövlət rüsumu | 305 015 003 |
| 2.1.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 72 780 456 |
| 2.1.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 547 895 539 |
| 2.1.20. | Azərbaycan Respublikası Mərkəzi Bankının reallaşdırılmış mənfəətinin sərbəst qalığı | 250 000 000 |
| 2.1.21. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 69 913 718 |
| 2.1.22. | Sair daxilolmalar | 439 054 439 |
| **2.2.** | **Xərclərin istiqamətləri** | **37 713 661 144** |
| 2.2.1. | Ümumi dövlət xidmətləri | 4 114 999 703 |
| 2.2.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 461 459 063 |
| 2.2.1.2. | beynəlxalq münasibətlər | 783 524 635 |
| 2.2.1.3. | xarici yardımlar | 79 605 258 |
| 2.2.1.4. | elm | 197 167 093 |
| 2.2.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 104 758 729 |
| 2.2.1.6. | büdcələrarası transfertlər | 192 876 505 |
| 2.2.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 185 150 000 |
| 2.2.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 6 391 640 |
| 2.2.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 334 865 |
| 2.2.1.7. | dövlət borcu | 1 295 608 420 |
| 2.2.2. | Müdafiə və milli təhlükəsizlik | 6 562 197 451 |
| 2.2.2.1. | müdafiə qüvvələri | 2 110 472 698 |
| 2.2.2.2. | milli təhlükəsizlik | 404 065 832 |
| 2.2.2.3. | sərhəd xidməti | 517 510 660 |
| 2.2.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 4 316 021 |
| 2.2.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3 525 832 240 |
| 2.2.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3 492 880 396 |

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 2.2.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 809 811 132 |
| 2.2.3.1. | məhkəmə hakimiyyəti | 137 954 958 |
| 2.2.3.2. | hüquq mühafizə | 2 088 898 679 |
| 2.2.3.3. | prokurorluq | 128 140 035 |
| 2.2.3.4. | məhkəmə qərarlarının icrası | 8 628 268 |
| 2.2.3.5. | hüquqi yardım | 5 539 153 |
| 2.2.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 440 650 039 |
| 2.2.4. | Təhsil | 4 390 064 757 |
| 2.2.4.1. | məktəbəqədər təhsil | 423 701 848 |
| 2.2.4.2. | ümumi təhsil | 2 289 350 323 |
| 2.2.4.3. | peşə təhsili | 77 116 721 |
| 2.2.4.4. | orta ixtisas təhsili | 92 288 218 |
| 2.2.4.5. | ali təhsil | 579 366 078 |
| 2.2.4.6. | əlavə təhsil | 18 718 679 |
| 2.2.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 5 885 247 |
| 2.2.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 903 637 643 |
| 2.2.5. | Səhiyyə | 1 828 828 627 |
| 2.2.5.1. | poliklinikalar və ambulatoriyalar | 2 007 866 |
| 2.2.5.2. | xəstəxanalar | 217 939 471 |
| 2.2.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 7 046 812 |
| 2.2.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 601 834 478 |
| 2.2.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 367 987 690 |
| 2.2.6. | Sosial müdafiə və sosial təminat | 4 151 108 103 |
| 2.2.6.1. | sosial müdafiə | 448 340 569 |
| 2.2.6.2. | sosial təminat | 5 020 819 |
| 2.2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 697 746 715 |
| 2.2.6.3.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 232 000 000 |
| 2.2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 496 986 919 |
| 2.2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 203 867 584 |
| 2.2.7.2. | televiziya, radio və nəşriyyat | 67 582 154 |
| 2.2.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 62 936 391 |
| 2.2.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 17 925 960 |
| 2.2.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 144 674 830 |

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 2.2.8. | Mənzil və kommunal təsərrüfatı | 319 479 340 |
| 2.2.8.1. | mənzil təsərrüfatı | 66 587 906 |
| 2.2.8.2. | kommunal təsərrüfatı | 146 026 165 |
| 2.2.8.3. | su təsərrüfatı | 1 638 904 |
| 2.2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 105 226 365 |
| 2.2.9. | Kənd təsərrüfatı | 1 095 770 030 |
| 2.2.9.1. | kənd təsərrüfatı tədbirləri | 524 659 715 |
| 2.2.9.2. | baytarlıq | 29 242 466 |
| 2.2.9.3. | meliorasiya | 438 056 549 |
| 2.2.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 103 811 300 |
| 2.2.10. | Ətraf mühitin mühafizəsi | 361 881 911 |
| 2.2.10.1. | bioloji zənginliyin qorunması | 8 539 755 |
| 2.2.10.2. | torpaq və yerquruluşu | 18 600 000 |
| 2.2.10.3. | hidrometeorologiya tədbirləri | 8 679 661 |
| 2.2.10.4. | meşə təsərrüfatı | 19 024 058 |
| 2.2.10.5. | balıqçılıq və ovçuluq | 1 296 333 |
| 2.2.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 305 459 370 |
| 2.2.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 282 734 |
| 2.2.11. | İqtisadi fəaliyyət | 9 701 195 637 |
| 2.2.11.1. | nəqliyyat və rabitə | 506 439 256 |
| 2.2.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 49 008 044 |
| 2.2.11.3. | tikinti və şəhərsalma | 8 006 417 147 |
| 2.2.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 3 181 398 635 |
| 2.2.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4 824 019 902 |
| 2.2.11.4. | geodeziya və faydalı qazıntılar | 6 836 889 |
| 2.2.11.5. | yanacaq və enerji kompleksi | 11 150 309 |
| 2.2.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 144 000 |
| 2.2.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 1 121 199 992 |
| 2.2.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 880 392 987 |
| 2.2.12.1. | ehtiyat fondları | 710 758 507 |
| 2.2.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 244 795 263 |
| 2.2.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 465 963 244 |
| 2.2.12.2. | məqsədli büdcə fondları | 568 079 832 |
| 2.2.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 568 079 832 |
| 2.2.12.2.1.1. | işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 230 000 000 |
| 2.2.12.3. | valyuta konvertasiyası | 1 480 530 |

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 2.2.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 600 074 118 |
| 2.2.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 45 000 000 |
| 2.2.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 19 977 353 |
| 2.2.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 12 881 897 |
| 2.2.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 522 214 868 |
| 2.2.13. | 2024-cü ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 944 547 |
| **2.3.** | **Dövlət büdcəsinin kəsiri** | **551 822 583** |
| **2.4.** | **2025-ci il yanvarın 1-nə vahid xəzinə hesabının sərbəst qalığı** | **1 837 805 194** |

**Maddə 3.** Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyul 2025-ci il